Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 4, s.112-115
Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 4, p.112-115
Нахчыванский институт учителей. Научные труды, 2025, № 4, с.112-115

**UOT: 821.161.2-31(470.53)-092:94(495.42)**
https://doi.org/10.30546/670832.2025.02.1264

# Yusif Vəzir Çəmənzəminli və Naxçıvan mövzusu

**Müəllif(lər):**

**Kamal Camalov**
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə elmlər doktoru, professor
**E-poçt:** kamal.camalov@gmail.com

**Açar sözlər:** repressiya qurbanı Yusif Vəzir Çəmənzəminli, qədim mənbələrdə Naxçıvan, qədim Naxçıvanın inşası, Naxçıvan abidələri, Naxçıvanın yerüstü sərvətləri

**Annotasiya.** Bu tədqiqat Naxçıvanın qədim və orta əsrlər dövründəki tarixi, mədəni, iqtisadi və sosial inkişafını araşdırmaq məqsədilə aparılmışdır. Məqalədə Naxçıvanın adının tarixi qaynaqlarda ilk dəfə necə qeyd olunması, şəhərin coğrafi mövqeyi və strateji əhəmiyyəti təhlil edilmişdir. Araşdırma zamanı İosif Flaviye, Klavdi Ptolemey, ərəb-fars tarixçiləri və repressiya qurbanı Yusif Vəzir Çəmənzəminlinin əsərləri əsas material kimi istifadə olunmuşdur.

Tədqiqat göstərir ki, Naxçıvan şəhəri zaman-zaman müxtəlif dövrlərdə moğol, osmanlı və digər hərbi fəthlərin təsirinə məruz qalsa da, xalqın zəhməti və şəhərin təbii imkanları sayəsində əvvəlki görkəmini qoruyub saxlamış və abadlığını bərpa etmişdir. Məqalədə şəhərin memarlıq və mədəni xüsusiyyətləri, iqtisadi potensialı (pambıq, qara arpa, qovun-qarpız) və sosial həyatı ətraflı təsvir edilmişdir.

Araşdırma həmçinin göstərir ki, Naxçıvanın tarixi inkişafı hökmdarlar və tayfaların şəhərə verdiyi önəmlə sıx bağlı olmuş, şəhərin strateji mövqeyi onun davamlı inkişafını təmin etmişdir. Mənbələrdə qeyd olunan məlumatlar Naxçıvanın yalnız coğrafi məkan deyil, həm də mədəni və sosial-mədəniyyət mərkəzi olduğunu ortaya qoyur.

Nəticə etibarilə tədqiqat Naxçıvanın qədim və orta əsrlər dövründəki tarixi, mədəni və iqtisadi xüsusiyyətlərini sistemli şəkildə təqdim edir, şəhərin Azərbaycan tarixində və mədəni həyatında xüsusi əhəmiyyətini təsdiqləyir.

## Nakhchivan in the creativity of repression victim Yusif Vazir Chamanzaminly

**Author(s):**

**Kamal Jamalov**
Nakhchivan Teachers Institute
PhD doctor, Professor
**E-mail:** kamal.camalov@gmail.com

**Key words:** repression victim Yusif Vazir Chamanzaminli; Nakhchivan in ancient sources; construction of ancient Nakhchivan; Nakhchivan monuments; Nakhchivan's terrestrial resources

**Abstract.** This study was carried for the purpose to investigate the historical, cultural, economic and social development of Nakhchivan in ancient and medieval times. The article analyzes how the name of Nakhchivan was first mentioned in historical sources, geographical position and strategic importance of the city. The works of Josephus Flavius, Claudius Ptolemy, Arab-Persian historians and the victim of repression Yusif Vazir Chamanzaminly were used as the main material for the study.

The study shows that, although the city of Nakhchivan was subjected to military conquests by Mongol, Ottoman and others in different periods, it preserved its former appearance and restored its prosperity thanks to people labour and the natural resources of the city. In the article describes in detail the architectural and cultural features of the city, its economic potential (cotton, black barley, melon-watermelon) and social life were described in detail.

The study also shows that, the historical development of Nakhchivan was closely related to the importance given to the city by the rulers and tribes, and the strategic position of the city ensured its sustainable development. The information mentioned in the sources reveals that Nakhchivan is not only a geographical location, but also a cultural and socio-cultural center.

Consequently, the study systematically presents the historical, cultural and economic characteristics of Nakhchivan in the ancient and medieval periods, confirming the special importance of the city in the history and cultural life of Azerbaijan.

## Юсиф Везир Чеменземинли и тема Нахчывана

**Автор(ы):**

**Кямал Джамалов**
Нахчыванский институт учителей
Доктор педагогических наук, профессор
**Э-почта:** kamal.camalov@gmail.com

**Ключевые слова:** жертва репрессий Юсиф Везир Чеменземинли, Нахчыван в древних источниках, строительство древнего Нахчывана, памятники Нахчывана, природные богатства Нахчывана

**Аннотация.** Данное исследование посвящено изучению исторического, культурного, экономического и социального развития Нахчывана в древний и средневековый периоды. В статье анализируются первые упоминания названия Нахчывана в исторических источниках, его географическое положение и стратегическое значение. В качестве основных источников использованы труды Иосифа Флавия, Клавдия Птолемея, арабо-персидских историков, а также произведения жертвы репрессий Юсифа Везира Чеменземинли.

Исследование показывает, что несмотря на неоднократные военные завоевания (монгольские, османские и др.), город сумел сохранить и восстановить свой облик благодаря труду народа и природным ресурсам. В статье подробно описаны архитектурные и культурные особенности города, его экономический потенциал (хлопок, ячмень, бахчевые культуры) и социальная жизнь.

Также установлено, что историческое развитие Нахчывана тесно связано с вниманием правителей и племён к городу, а его стратегическое положение обеспечивало устойчивое развитие. Источники свидетельствуют о том, что Нахчыван являлся не только географическим пунктом, но и важным культурно-социальным центром.

В итоге исследование системно раскрывает исторические, культурные и экономические особенности Нахчывана в древний и средневековый периоды и подтверждает его особое значение в истории и культуре Азербайджана.

**Giriş**. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan öz qədim tarixiliyi ilə fərqlənən bir məkandır. Naxçıvan adını ilk dəfə İosif Flaviye (e.ə. I əsr) və Klavdi Ptolemey (eramızın II əsri) öz əsərlərində çəkmişlər. "Naxçıvanın adı ilk dəfə Naksuana şəklində qeyd olunmuş və coğrafi mövqeyi göstərilmişdir" [1, s.338]. Bundan sonra görkəmli ərəb-fars tədqiqatçıları və alimləri Bəlazuri, İbn əl-Fəqih, İbn Xordadbeh, Qudama ibn Cəfər, əl-Müqəddəsi, əl-İstəxri, əl-Biruni, Yaqut Həməvi, Həmdullah Qəzvini, Əbdürrəşid Bakuvi, Mirxond, Həsən Rumlu, İskəndər Münşi və başqaları bu qədim şəhəri Nəşavə, Nəqçuan, Nəxşevan, Nəxçuan, Nahhuntevan, Nuhçuvan, Nəxçuvan, Nəxçəvan və sair kimi şəkillərdə adını çəkmişlər.

"Qızlar bulağı", "Qan içində", "Studentlər" və sair kimi biri-birindən gözəl əsərlərin müəllifi olan repressiya qurbanı Yusif Vəzir Çəmənzəminli isə "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" adlı əsərinin birinci hissəsində qeyd edir ki, "bu şəhərin əsl adı "Nəqşe-cahan"dır. "Naxçıvan" və "Nəxşevan" "Nəqşe-cəhan"ın ərəbləşməsidir" [2, s.177]. Yusif Vəzir Çəmənzəminli yazır ki, bu şəhər hökmdar Qubad tərəfindən bina olunmuşdur. Yusif Vəzir Çəmənzəminli səyyah Övliya Çələbinin Naxçıvan haqqındakı qeydlərini öz qələmində təsvirini yazaraq göstərir ki, Naxçıvan "Azərbaycan hüdudunda başqa xanlıqdır ki, xanı çox əsgərə malikdir. Etimadül-dövləsi, kələntəri, münşisi, darğası, diz çökən ağası, çikyiyən ağası vardır ki, bu əsnafın həp hökumətdə əlaqələri var. Qazisi, şeyxül-islamı dəxi vardır. Bu şəhəri zamani-qədimdə Şah Əfrasiyab bina etmişdir ki, hala əcdadının mədfun olduğu qübbələr nümayandır" [2, s.177].

Yusif Vəzir Çəmənzəminli bundan sonra Naxçıvanın Əhməd paşa, Fərhad paşa adlı came və ibadətxanalarından; İstanbul tərzdə olan otuz üç minarəsindən; mehmanxana, hamam və dükanlarından; güllü-çiçəkli bağ və bağçalarından; yeddi növdə yetişdirilən pambığından; qüvvətli arpasından və ata verilən qara arpanın dörd növündən; sulu və şirinliyində əvəzsiz olan qovun-qarpızından; Naxçıvanın igid oğlanlarının zorbiləkli olmasından və biri-birindən gözəl olan qızların nəzakətindən və digər bu kimi məsələlərdən söhbət açır. Göstərilir ki, "on min iki yüz torpaq örtülü xanədanı-əzimlərə arəstə (arəstə – tərtibə salınmış – K.C.) yetmiş ədəd came və və ibadətxanələri isə pirastədir (pirastə – bəzəkli – K.C.). Qırx məscidi, iyirmi mehman sarayı, yeddi gözəl hamamı, minə qədər dükanı var. İmarətinin əksəri gözəldir... Yeddi dürlü pambığı (zağı, zəfərani, ləli, xas, bəyaz), ğəlləsi (gəllə - yağ, kərə, pendir – K.C.), hüntəsi məmduhdur... Arpası pək qüvvətli və çoxdur. Gözəlləri əbyəzəlyundur (əbyəz – ağ – K.C.). Ərkəkləri zor zoviyəli tac, uzun sərbənd sarar, qələmkari pişək piş came geyərlər. Ayaqlarına əlvan keçə çaqqışır, yaşıl, qırmızı, narıncı, turuncu papış geyərlər. Zənənləri sivri-sivri taqiyə geyib, üzərinə bəyaz azar boyanur, ayaqlarına əlvan cəzmə geyərlər. Gözəlləri qunaqun kəbudi kürkdən böki-İsfahan geyib, xuraman və rəftar, zarafat və nəzakət göftar edərək xalq ilə hüsni-ülfət edərlər. Camaat kəsirəli qərib camələri vardır ki, hər biri birər cənəti-firdous, xüldi-bərindir (cənəti-firdous, xüldi-bərin adları müqəddəs Quran kitabında cənnət adları kimi keçir – K.C.)... Hər bir gəncineyi-Qarunə malik, maldar, tüccar zuetibardır. Bu şəhərin rəaya (rəaya – surətin, şəklin, formanın mənası, məzmunu – K.C. ) və bərayası (bəray – ötrü, üçün – K.C.)" dehqani lisanı (dehqani lisanı – kəndli dili – K.C.) üzrə qonuşurlar. Amma arif şairləri nədim zərifləri zarafat və nəzakətlə pəhləvi və moğoli lisanından kəlimat edərlər ki, qədim lisanlarıdır" [2, s.178].

Yusif Vəzir Çəmənzəminli mənbəyə əsaslanaraq xatırladır ki, Naxçıvanı bina edən Şah Əfrasiyab və ondan sonrakı dövrdə şəhər o qədər gözəl və abad imiş ki, ona bir başqa bənzər şəhər yox imiş. Sonra moğol tayfası yer götürməz əsgərləri ilə gəlib bu şəhərin "nəqşi-cahanını pozaraq xarabüyəbab, qalasını münhədim edib (münhədim – dağıdıb – K.C.), türab (toz-torpaq – K.C.) etmişlərdir" [2, s.177].

Yusif Vəzir Çəmənzəminli notlarından görürük ki, bundan "sonra osmanlılardan Məhəmməd Salsi əsrində osmanlılar əlində ikən Şah Qümrah tərəfindən Zülfüqar xan gəlib, Nəxşivanı istila eləmişdir. Sonra Muradxan Rabe əsgəri gəlib, təbaniyəsi Məhəmməd Paşa buranı fəth etmişdir. Murad Rabedən sonra burası da (Naxçıvan – K.C.) məmur və abadan olmuşdur" [2, s. 177].

Yusif Vəzir Çəmənzəminli Katib Çələbinin qeydlərinə əsaslanaraq vurğulayır ki, "Naxçıva-

nın qədimdən mətin bir hasarı var imiş. Hülaku xan (Çingiz xanın nəvəsi – K.C.) oranı aldıqda xalqını qırdı və qalanı xarab elədi. Elxanilər də Naxçıvana malik idilər. Bunlar şəhəri Nəsir Tusinin təlimi ilə ala bildilər. Ağacdan toplar yapıb, içinə qurğuşun doldurub, mancanaq ilə şəhərə atdılar və bu vasitə ilə qalanı fəth etdilər" [2, s. 178].

Yusif Vəzir Çəmənzəminli Əmir Teymurun Naxçıvana yürüşü ilə bağlı fikrində bir çox tarixçilərin araşdırmalarından fərqli olaraq belə qənaətə gəlir ki, "Əmir Teymur Naxçıvanın abadanlığına çox çalışmışdır. Mirzə Şahruxun (Əmir Teymurun dördüncü və kiçik oğlu – K.C.) miyaşərti ilə şəhərə bir arx da çıxardılar [2, s.178].

Göründüyü kimi, babalarımızın ağır zəhmət bahasına qurduğu, gələnin-görənin "Nəqşi cahan" adlandırdıqları bu gözəl şəhərin zaman-zaman daşı-daş üstündə qalmayıb. "Lakin dövran keçib, xarabazara döndərilmiş Naxçıvan xarabalıqlar içindən dönə-dönə baş qaldırıb, yenidən dirçələrək, əvvəlki görkəmini özünə qaytarıb. Hətta əvvəlkindən də gözəl olub. Yad gözlərin ona zillənmiş kəc baxışları isə dünən olduğu kimi bu gün də üstündən çəkilməyib".

**Material və metodlar.** Tədqiqatın aparılması üçün material kimi Naxçıvanın qədim və orta əsr tarixinə dair tarixi mənbələr, səyyahların qeydləri, eləcə də repressiya qurbanı Yusif Vəzir Çəmənzəminlinin "Naxçıvan" əsəri istifadə olunmuşdur. Həmçinin İosif Flaviye və Klavdi Ptolemey, Bəlazuri, İbn Xordadbeh, Yaqut Həməvi, Həmdullah Qəzvini, Mirxond və digər ərəb-fars tarixçilərinin əsərləri tədqiqatın əsas materialını təşkil etmişdir. Bu materiallar Naxçıvanın coğrafi mövqeyi, tarixi inkişaf mərhələləri, abadlıq və şəhərsalma xüsusiyyətləri, iqtisadi və sosial həyatını əks etdirən məlumatlar təqdim etmişdir.

Tədqiqatın metodologiyası əsasən müqayisəli-tarixi yanaşma üzərində qurulmuşdur. Mənbələr arasındakı məlumatlar müqayisəli şəkildə təhlil edilmiş, şəhərin tarixi inkişafının mərhələləri, müxtəlif dövrlərdə baş vermiş müharibə və fəthlər, eləcə də iqtisadi və mədəni həyat araşdırılmışdır. Eyni zamanda təsviri metod vasitəsilə Naxçıvanın fiziki, sosial və mədəni xüsusiyyətləri sistemli şəkildə şərh edilmişdir.

Bundan əlavə, analitik və elmi-nəzəri ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Mənbələrdən əldə olunan məlumatlar bir-biri ilə müqayisə edilərək, tarixi reallıqların və şəhərin davamlı inkişafının xüsusiyyətləri müəyyən edilmişdir. Mətnlərin semantik və struktur xüsusiyyətləri nəzərdən keçirilmiş, tarixi hadisələrin və şəhərsalma praktikalarının təsviri elmi əsaslarla təqdim olunmuşdur.

Beləliklə, tədqiqat həm klassik, həm də müasir tarixi mənbələrdən istifadə etməklə Naxçıvanın qədim və orta əsrlər dövründəki tarixi, sosial, iqtisadi və mədəni xüsusiyyətlərini sistemli şəkildə öyrənməyə imkan yaratmışdır.

**Nəticə və müzakirə.** Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Naxçıvanın tarixi inkişafı, abadlığı və mədəni həyatı onun strateji coğrafi mövqeyi və dövrlər ərzində müxtəlif hökmdarlar və tayfaların şəhərə verdiyi önəm ilə sıx bağlı olmuşdur. Repressiya qurbanı Yusif Vəzir Çəmənzəminlinin əsərləri, həmçinin qədim və orta əsr tarixçilərinin qeydləri göstərir ki, Naxçıvan zaman-zaman dağıdıcı müdaxilələrə (moğol, osmanlı və digər hərbi fəthlər) məruz qalsa da, xalqın zəhməti və şəhərin təbii imkanları sayəsində öz əvvəlki görkəmini bərpa etmişdir.

Araşdırma zamanı aşkar edilmişdir ki, Naxçıvanın iqtisadi və kənd təsərrüfatı potensialı (pambıq, qara arpa, qovun-qarpız və s.) şəhərin tarixi inkişafını təmin edən mühüm amillərdən olmuşdur. Eyni zamanda şəhərin memarlıq və mədəni xüsusiyyətləri – came və ibadətxanalar, minarələr, mehmanxana, hamam və dükanlar – şəhərin abadlığı və sosial həyatının zənginliyini əks etdirir.

Müzakirə göstərir ki, Yusif Vəzir Çəmənzəminlinin və digər mənbələrin təsvirləri Naxçıvanın yalnız tarixi və coğrafi məkan kimi deyil, həm də mədəni və sosial mərkəz kimi dəyərləndirilməsinə imkan yaradır. Tarixi hadisələr, fəthlər və şəhərsalma işləri üzərində aparılan müqayisəli-tarixi təhlil göstərir ki, Naxçıvanın davamlı inkişafı həm əhalinin zəhməti, həm də şəhərin strateji əhəmiyyəti ilə bağlı olmuşdur.

Tədqiqatın nəticələri Naxçıvanın qədim və orta əsrlər dövründəki tarixini, mədəni həyatını və iqtisadi potensialını daha dərindən anlamağa imkan verir. Eyni zamanda bu nəticələr göstərir ki, şəhərin tarixi davamlı olaraq yenidən bərpa olunmuş və öz mədəni-memarlıq xüsusiyyətlərini qoruyub saxlamışdır. Bu isə Naxçıvanın Azər-

baycan tarixində xüsusi əhəmiyyət daşıyan, mədəni və sosial-mədəniyyət mərkəzi olduğunu bir daha təsdiqləyir.

**Yekun nəticə.**

Yekunda belə nəticəyə gəlirik:

1. Repressiya qurbanı Yusif Vəzir Çəmənzəminli Naxçıvan adının ərəb mənşəli, Nəqşe-cahan sözünün isə türk mənşəli olduğu qənaətində olmuşdur;
2. Repressiya qurbanı Yusif Vəzir Çəmənzəminli Katib Çələbinin sözlərinə əsaslanaraq göstərir ki, Naxçıvanı bina edən Şah Əfrasiyab və ondan sonrakı dövrdə şəhər gözəlliyinə və abadlığına görə ona bir başqa bənzər şəhər olmamışdır;
3. Repressiya qurbanı Yusif Vəzir Çəmənzəminli yazır ki, zaman-zaman moğol tayfaları, osmanlılardan Məhəmməd Salsi, Şah Qümrah, Zülfüqar xan, osmanlılardan Məhəmməd Salsi, Muradxan Rabe, Məhəmməd Paşa, Qacar şah və digərləri yer götürməz əsgərləri ilə gəlib bu şəhərin "nəqşi-cahanını pozsalar da, düzəngah halına salsalar da Naxçıvan yenə də baş qaldırıb əvvəlki görkəmini özünə qaytarmışdır;
4. Repressiya qurbanı Yusif Vəzir Çəmənzəminli qələmindən oxuyuruq ki, Naxçıvanda yeddi növdə pambıq, dörd növdə qara arpa, sulu və şirinliyində əvəzsiz olan qovun-qarpız yetişdirilmişdir;
5. Repressiya qurbanı Yusif Vəzir Çəmənzəminli kiçik həcmli "Naxçıvan" yazısı ilə Naxçıvanın qədim və orta əsrlər dövrünü bənzərsiz şəkildə işıqlandıra bilmişdir.

**Ədəbiyyat**

1. Naxçıvan Ensiklopediyası. – Bakı, – 2002. – 598 s.
2. Çəmənzəminli, Y.V. Əsərləri. Üç cilddə. III cild. / Y.V.Çəmənzəminli. – Bakı: Avrasiya press, – 2005. – 440 s.
3. Talıbov, Y. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi / Y.Talıbov, F.Sadıqov, S.Quliyev. – Bakı: Ünsiyyət, – 516 s.
4. Həsənli, O. Təhsilin müasir psixoloji problemləri / O.Həsənli. – Naxçıvan: Əcəmi, – 2017. – 416 səh.
5. Camalov, K. Yusif Vəzir Çəmənzəminli yaradıcılığında maarifçilik ideyaları / K.Camalov. – Bakı: ADPU, – 2007. – 38 s.

*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Akif Abbasov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 25.09.2025, son daxilolma – 20.10.2025, qəbulolunma – 05.12.2025